**Heydər "Xalq!" - deyəndə Xalq "Heydər!" - dedi**

Qara imperiya caynaqlarından,
Salamat qurtaran tək kişiydi O.
Böyüdü, ucaldı fələklər qədər,
Yerin də, göyün də gərdişiydi O.

Ağbirçək ananın saçları kimi
Öpdü ağ pambığı baxışlarıyla.
Hər yerdə Vətənə xalı toxudu,
Torpağa vurduğu naxışlarıyla.

Əlində bərəkət, gözündə işıq,
Çəkdi qara nefti ağ yanağına.
Diünyanı gətirib qədəmlərinə,
Qaldırdı milləti Tanrı dağına.

Sahildən-sahilə körpülər atdı,
O əsri bu - əsrə bağlamaq üçün.
Keçdi birdəfəlik sağlamlığından,
Vətəni salamat saxlamaq üçün.

Memar baxışıyla baxdı dağlara,
Əridi, yonuldu qranit qaya.
Nəsimi, Cabbarlı, Cavid, Nəriman,
Heykələ çevrilib, gəldi dünyaya.

Yüksələn dövlətlə qalxır, ucalır,
Sünbüllə, zəmiylə ətirlənir O.
Hər eldə bir şirin xatirə qalır,
Hər yerdə sevgiylə xatırlanır O.

Sevgi birdən-birə yarana bilməz,
Aylarla-illərlə yığılıb gəlir.
Gözdən qəlbə köçür, candan ürəyə,
Millətin bağrından doğulub gəlir.

Xalqını dünyaya tanıtmaq üçün
Səsi qanadlandı altı qitədə,
Bu gün diqqəti var bütün dünyanın
Azərbaycan adlı bir xəritədə.

Məkkədə görmüşdüm, o xoş günləri
Ömrünün ən gözəl vaxtı sayırdı.
Orda da əl açıb dua yerinə
"Azərbaycan" sözü pıçıldayardı.

Çində də görmüşdüm böyüklüyünü,
Orda ucalmışdı Çin səddi kimi.
Onu qoruyurdu baxışlarımız
Vətənin müqəddəs sərhədi kimi.

"Manas " dastanının min illiyində
Yaratmaq eşqiylə aşıb-daşırdı.
Ordaca bizləri yığıb başına
Oorqud  bayramına hazırlaşırdı.

Zamandan zamana gələcək səsi,
Bir qaya səngəri, daş qalasıdı.
O mənim xalqımın baş sərkərdəsi,
O mənim yurdumun baş qalasıdı.

Xalq elə güclüdü, sevdiklərini
Qaldırar başında qızıl tac eylər.
Onun hər sözünü, işarəsini

Hər ağır dərdinə bir əlac eylər.

Xalq elə güclüdü, o dirildəni
Əzrayıl heç zaman öldürə bilməz.
Min dəniz qabara, min çay köpürə,
İzini torpaqdan sildirə bilməz.

Oğullar doğular... bu qoca dünya
Bir də əvəzini gətirməz onun.
Yazar yaddaşına, hafizəsinə,
Heç vaxt zəhmətini itirməz onun.

Qorquda bənzətdi Dədə deyənlər,
Kimi ata dedi, kimi ər dedi.
Ana-bala kimi qucaqlaşdılar,
Heydər "Xalq!" — deyəndə
Xalq "Heydər!" — dedi.

Xilaskarın gəlişiylə
alov yatdı, qan dayandı
Sanki bir az rahatlandı,
Nəfəs dərdi Azərbaycan.

***

Əldən-ələ keçən dövlət
aralıqda bazar malı,
Ər kişinin hesabına
yenə ərdi Azərbaycan.

Canı-qanı bahasına
qazandığı istiqlalın
Müstəqillik meyvəsini
gül tək dərdi Azərbaycan.

Tufanların cilovunu
özbaşına buraxmadı,
Zirvələrə qaya kimi
sinə gərdi Azərbaycan.

Ölüm-dirim qorxusu yox,
başçı başda, yerindədi,
Saf arzular qaynağıdı,
təzə-tərdi Azərbaycan.

Öz varını öziünə ver,
aşıb-daşsın dəniz kimi,
Dolu qızıl külçəsidi,
parlaq zərdi Azərbaycan.

Sərkərdələr sərkərdəsi
öz işinin başındadı,
Bir də hardan tapasıdı
belə mərdi Azərbaycan.

Hünərsizlər bacarmadı,
Bu Vətəni saxlamağa,
Öz hünərli oğlu ilə
hünərvərdi Azərbaycan.

***Zəlimxan Yaqub***

***Xalq qəzeti. – 2007. – 12 dekabr. – S.2.***